**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№352/2** **29 dekabr 2022-ci il**

**“Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2023-cü il üçün Plan-qrafik”lərin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət üzrə Qaydalar”a uyğun olaraq Palatanın Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (V.Rəhimov) tərəfindən təqdim edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2023-cü il üçün 1 və 2 nömrəli Plan-qrafik”lərin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2023-cü il üçün 1 və 2 nömrəli Plan-qrafiklər” təsdiq edilsin (əlavə olunur).

2. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitəyə (V.Rəhimov) tapşırılsın ki, 2023-cü il üçün nəzərdə tutulmuş auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin müvafiq Qaydaya uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.

3. Palata sədrinin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı və operativ tənzimləmə idarəsinə (Q.Əhmədov) tapşırılsın ki, bu qərarın və “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2023-cü il üçün 1 və 2 nömrəli Plan-qrafiklər”in mətnlərinin Palatanın internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**